**FƏRQANƏ MƏLİKOVA**
**Bakı Slavyan Universiteti**
**Şamil Əzibəyov 102**
**melikova8689@gmail.com**

# UŞAQ JURNALLARINDA TƏRTİBAT MƏSƏLƏLƏRİ

**Xülasə**

Məqalə Azərbaycan milli uşaq mətbuatının formalaşmasında xüsusi yeri olan "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnallarının tərtibatı məsələlərinə həsr olunmuşdur. Bu məqalədə hər üç jurnalın ideyası ilə forma mütənasibliyi haqqında məlumat verir. Bundan başqa, jurnalların tərtibat məsələlərindən, strukturundan, rubrikalarından, format və digər texniki göstəricilərindən də geniş bəhs edilmişdir. Yeri gəldikcə məqalədə jurnalların struktur problemləri və tərtibat məsələləri konkret nümunələr əsasında izah olunur.

Məqalədə hər üç jurnalın üz qabığı və birinci nömrəsi barədə təhlilə geniş yer ayrılmışdır. "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnallarının səhifələrinin sayı və üz qabığının dizaynı haqqında danışılmışdır. Məqalədə jurnalların sətir və sütunları ayırıca olaraq tədqiq edilmişdir. Eyni zamanda "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnallarının tərtibatındakı müxtəliflik müqayisə üsulu ilə tədqiq edilmişdir. Belə qənaətə gəlinmişdir ki, "Dəbistan" və "Məktəb" jurnalı oxşar formatda olsa da "Rəhbər" jurnalı tamamilə bunlardan fərqlidir. Bu fərqlilik eyni zamanda "Rəhbər" jurnalının materiallarında da özünü göstərir. Məqalədə jurnalların üz qabığında verilimiş rəngsiz şəkillər və onların mənası tədqiq olunaraq izah edilmişdir.

Məqalədə jurnalların nəşr olunduğu redaksiya, bu jurnalların simasını əks etdirən informativ yazılar, elanlar və digər tərtibat xüsusiyyətləri haqda məlumat vermişdir. Bundan başqa məqalədə hər üç jurnalın həm şəhər daxilində həm də şəhər xaricində abunə qiymətləri haqqında məlumat verilir. Eyni zamanda, əcnəbi ölkələrdə altı aylıq və illik abunə qiymətləri haqqında da məlumat verilmişdir.

Məqalədə göstərilir ki, "Dəbistan" və "Rəhbər" jurnallarından fərqli olaraq, "Məktəb" jurnalında "Mündəricat" adlı başlıq da verilir.

**Açar sözlər:** tərtibat, uşaq mətbuatı, rubrika, forma

Hər bir mətbuat orqanının formatı uzun bir yaradıcılıq axtarışının, düşüncə və qənaətlərinin nəticəsidir. Belə ki, mətbu orqanı təsis edən şəxs əvvəlcə onun proqram və məramnaməsini müəyyənləşdirir, kağız (çap) formatı, çap üçün seçilən materialların çeşidlənməsini, şriftlərini, ümumən maketini – qəzet və ya jurnalın "sifətini", oxucuya dikilən "baxışlarını", hətta rəngini belə nəzərə alır. Bütün bu axtarış və qənaətlər yekunlaşdıqdan sonra oxuculara təqdim olunan mətbu orqanının ideya-məzmunu onun üz qabığında formalaşdırılır.

Bundan başqa materialların müvafiq səhifələrdə yerləşdirilməsi, bu zaman onun həcminə uyğun səhifədə şaquli və ya üfüqi istiqamətli yer ayrılması, şriftlərin ölçüləri, materialın sıxlığı və digər cəhətlər, həmçinin materialın məzmununa uyğun fotoların seçilməsi və həm səhifənin, həm də orada yer alan materialın müvafiq sahədə yerləşdirilməsi də uğurun əldə edilməsini şərtləndirən amillərdəndir. Milli uşaq jurnallarının redaktorları elmi ədəbiyyatda göstərilən bu və digər cəhətləri (1,s.43; 45-46; 62-63;68-71) öz fəaliyyətlərində mümkün qədər nəzərə almağa çalışmışlar. Belə ki, "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnallarında demək olar ki, materialların yerləşdirilmə ardıcıllıqları və prinsipləri gözlənilirdi. Jurnalların hər nömrələrinin

birinci səhifəsinə onun simasını əks etdirən reklam xarakterli lövhə yerləşdirilmişdi. “Dəbistan” və “Məktəb” jurnalı öz reklamında müsəvvər, yəni şəkilli jurnal kimi göstərilmiş, ”Rəhbər” isə şəkilsiz verildiyinə görə bu sözü işlətməmişdir. Uşaq jurnallarında şəkillər verilsə də, onlar maddi çətinliyə görə rəngsiz çap edilirdi. “Dəbistan” və “Rəhbər” jurnalları öz abunə qiymətlərini üz qabığında göstərmiş, “Məktəb”də isə bu son səhifədə qeyd edilmişdir. Jurnallarda böyük həcmli materiallar “mabədi var” (yəni davamı var) yazılaraq sonrakı nömrələrdə çap edilirdi.

Uşaq jurnalları şəhər daxilində və şəhər xaricində olan abunə qiymətlərini qeyd etmişdir, “Məktəb”də isə bu, sonda qeyd edilmişdir. Hər üç uşaq jurnalı nəşrə öz məramnaməsi ilə başlamışdır, “Dəbistan” və “Rəhbər”də jurnalın məramı “İfadeyi-məram” başlığı altında, “Məktəb” də isə “İdarədən” başlığı altında verilmişdir. Qeyd edək ki, bu jurnallar vacib elan və məlumatlarını “İdarədən” başlığı altında verilmiş bölmədə göstərirdi.

Ümumiyyətlə, uşaq jurnallarını xarakterizə etsək, görərik ki, “Dəbistan” və “Məktəb” jurnallarının formatı bir-birinə oxşasa da, “Rəhbər” jurnalı demək olar ki, fərqli formatdadır. Bunun səbəbi, qeyd etdiyimiz kimi jurnalın istiqamətindən asılıdır. “Rəhbər”dəki materiallar oxu materialları olub, uşaqları maarifləndirmək xarakteri daşıyırdı. Buna görə də biz bu jurnalı yalnız metodiki yox, həm də pedoqoji istiqamətli jurnal adlandıra bilərik.

İlk milli uşaq mətbuatı kimi ortaya çıxan “Dəbistan” uşaqları cəlb etmək üçün, “Rəhbər”dən fərqli forma və məzmun zənginliyi ilə seçilirdi. Hətta deyə bilərik ki, “Məktəb” jurnalı onun – “Dəbistan”ın formatını mənimsəmişdir.

"Dəbistan"ın hər səhifəsi iki sütuna bölünür və hər sütunda isə 30 sətirlik (xətlik) material yerləşdirilirdi. Jurnalın hər nömrəsi 17 səhifədən ibarət idi. Hər nömrənin əvvəlində isə jurnalın simasını əks etdirən “Mütəallimlərə məxsus iki həftədə nəşr olunan və əbnai-millətimizin tərəqqi və təkamülünə xidmət edən müsəvvər türk jurnalıdır” sözü yazılırdı.

“Dəbistan” azyaşlı oxucular və onların valideynlərində milli ədəbiyyata marağı artırmaq məqsədi ilə elan etdiyi müsabiqələrlə bağlı səhifələrdə məktublar, redaksiyaya gələn cavablar, nağıllar, tapmacalar dərc edirdi. Suallara, tapmacalara düzgün cavab tapan uşaqlara isə hədiyyə olaraq üç ay ərzində jurnalın nömrələri pulsuz göndərilir və ya adları jurnalda elan olunurdu.

1906-cı il "Dəbistan"ın bütün nömrələrinin üz qabığı müəyyən həyati lövhələri, müxtəlif sahələrdə böyük rol oynamış şəxsiyyətləri, bir sıra elmləri və s. özündə əks etdirən rəngsiz şəkillərlə bəzənirdi. 1907-ci ildən başlayaraq isə jurnalın üz qabığında özündə dərin mənanı əks etdirən rəngsiz bir qrafanın içində üç ayrı-ayrı şəkil verilmişdir. Maraqlıdır ki, bu şəkil sonradan “Məktəb” jurnalının hər nömrəsinin üz qabıq şəkli oldu. “Dəbistan” jurnalının isə 1906-cı ildə heç bir nömrəsində bu şəkil verilməmiş, yalnız 1907-ci ildən başalayaraq artıq hər nömrədə verilirdi. Şəkillərin ikisində rəsm müəlliflərinin baş hərfləri (P.M. və V.S.) göstərilmişdir.

Birinci şəkildə məscidin yanından keçən qoca kişi və qoltuğunda dəftəri olan nəvəsinin təsviri verilmişdir. İkinci şəkildə məktəbə aid olan əşyalar ( qlobus, mürəkkəb, dəftər və s. ) göstərilmiş, hər iki rəsmin ortasında isə buludların arasından boylanan günəşin ətrafa yaydığı şüalar əks olunmuşdur.

“Dəbistan”ın hər nömrəsi jurnalın şəhər daxilində, şəhər xaricində, əcnəbi məmləkətlərə satılan qiymətlərlə başlayırdı. Burada qeyd olunur ki, şəhər daxilində bir sənəliyi 4 rublə, 6 aylığı 2 rublə 7 qəpikdir, şəhər xaricində 1 sənəliyi 4 rublə 5 qəpik, 6 aylığı 3 rublə təşkil edir. Əcnəbi məmləkətlərə isə 1 sənəliyi 5 rublə, 6 aylığı 3 rublə 5 qəpik təşkil edir. Hər nömrənin sonunda isə jurnalın çap olunduğu mətbəə - “Füyuzat” və “Kaspi” mətbəəsi, naşir və redaktorun adı göstərilirdi. Jurnalın “məhəll-e idarə” bölməsində isə jurnalın redaksiyasiyasına hansı tipli materialların göndərilməsi və yazılış qaydası bu şəkildə bildirilmişdir: “Jurnalımızın məsləkinə müvafiğ yazılış məqalələri qəbul idərüz. Lekən onları təshih etməgə müəllifin ixtiyarı vardır.

Çap olunmayan məqalə sahibinə verilməz. Markəsiz göndərilmiş məktublar qəbul edilməz. İdarə də hər gün sübh saətdən saət (1)dək, axşam 5 dən 8dək açıqdır. Jurnala çap olunmaq üçün göndərilən yazıların sadə türkcə olmaları təmənna olunur”.

Əgər “Məktəb” jurnalında ulduz işarəsi verilmiş materiallar tərcümə materialları hesab edilirdisə, “Dəbistan” da isə anlaşılmayan sözə səhifənin axırında bu işarə ilə aydınlıq gətirilirdi. Əgər “Məktəb” jurnalında səhifələnmə jurnalın son nömrəsinə qədər gedirsə, “Rəhbər” və “Dəbistan” da hər nömrə birdən başlayaraq verilmişdir.

Birinci nömrə “Dəbistan” jurnalının aylıq əlavəsi kimi üç səhifə həcmində çıxmışdır. Burada “Dəbistan” başlıqlı jurnalın məramnaməsi, uşaqların tərbiyə və təlimindən bəhs edən iki material verilmişdir. Jurnalın əlavəsi digər nömrələrdəki kimi tərtibat baxımından eynilik təşkil etmir, həcmi qısa, formatı isə fərqliydi. Jurnalın birinci nömrəsindəki materiallar da digər nömrələrdəki kimi ardıcıllıqla düzülmüşdür. Düzdür, hər üç jurnalda materialların həcminə görədir ki, bəzi nömrələrində məntiqi ardıcıllıq pozulmuş və uyğunluq gözlənilməmişdir.

“Dəbistan” jurnalının birinci nömrəsində “Tərcümeyi-hal” xarakterli material verilmiş və bu hal ənənəvi xarakter daşımışdır. Daha sonra S.M.Qənizadənin geniş həcmli “Nabəkar qonşu” adlı silsilə xarakterli hekayəsi, bir kiçik hekayə, tərcümə əsəri, şeir parçası və ənənəvi olaraq H.Zərdabinin heyvanlar haqqında “Tarixi təbii” başlıqlı rublikası verilmişdir. Gördüyümüz kimi, ənənəvi olaraq, “Tərcümeyi hal” və “Tarixi təbii” rublikalı yazılar hər nömrədə təkrarlanmalı olsa da, bu ardıcıllıq bəzi nömrələrdə pozulmuşdur.

“Rəhbər” jurnalı, yuxarıda qeyd etdiyimiz kimi, forma və məzmunca digər uşaq jurnallarından fərqlənirdi. Jurnal çox sadə formada dizayn edilmiş və heç bir şəkildən istifadə edilməmişdir. Jurnalın üz qabığı sadə formada kənarları gül şəkilləri ilə bəzənmiş qrafa və içərisində jurnalın simasını əks etdirən reklam lövhəsi yerləşdirilmiş şəkildə çıxmışdır. Səhifənin başında jurnalın adı yazılmış, sağ hissədə jurnalın çıxdığı ayın tarixi və ili əski yazı ilə, sol tərəfdə isə rus dilində yazılmışdır. Aşağı hissədə isə jurnalın simasını əks etdirən reklam səciyyəli yazı yerləşdirilmişdir. Jurnalın 23 sentyabr 1906-cı il şənbə günü çıxdığı qeyd olunmuşdur. Bütün nömrələrin əvvəlində isə jurnalın siması bu şəkildə verilmişdir: “Qafqazın və tamam Rusiyanın məişətindən bilümum Rusiya müsəlmanlarının məişətindən bilxüsus ədəbiyyatından və üsuli-təlim və tərbiyədən bəhs edən aylıq türk jurnalıdır”.

“Rəhbər”in beş nömrəsinin üz qabığı sağ tərəfdə “abunə qiyməti” və sol tərəfdə “məhəlli idarə” başlığı altında kiçikhəcmli elan xarakterli yazılardan və simasını əks etdirən materialla başlayır.

“Abunə qiyməti” başlıqlı hissədə jurnalın hər aylıq qiyməti və qəzetə müştəri olmaq istəyənlərə ünvan göstərilərək yazılır: “dörd aylıq 1907-ci ilin ayda sənədən bir manat əlli qəpik müstəri olmaq istəyən Bakıda “Dəbistan” jurnalının idarəsinə rücu etsinlər” (digər dörd nömrələrdə isə “Rəhbər” idarəsinə müraciət etmələri bildirilir). Burada eyni zamanda “adres” də göstərilmişdir: “Nicat” qiraətxanası, qubernator küçəsi, Aşurbəyovun evi”.

Sol hissədə isə “Məhəlli idarə” başlığı altında verilmiş hissədə jurnala göndərilmiş hansı məzmunlu materialların qəbul olunacağı bildirilərək yazılır:

“Jurnalımızın məsləkinə müvafiq yazılmış məqalələri qəbul ediyoruz. Lakin təshihinə idarə müxtardır. Çap olunmayan məqalə sahibinə göndərilməz. Marağasız göndərilmiş məktublar qəbul olunmaz”.

Məhəlli idarə eyni zamanda jurnalın idarəsində məskunlaşdığı yeri göstərmək üçün verilir və jurnalın redaksiyasının "Dəbistan"la bir yerdə - H.Z.Tağıyevin pasajında yerləşirdiyi qeyd olunmuşdur.

Jurnalın birinci nömrəsində nəşrin “İfadeyi-məram”ı verilmişdir. Jurnalın hər aylıq abunə qiyməti 1 manat 50 qəpik idi. (Belə görünür ki, “Rəhbər” jurnalının qiyməti digər uşaq jurnallarından baha idi). Jurnalın yalnız iki nömrəsinin sonuncu səhifəsində “Mütəəllimlərə töhfə”, “Kilit ədəbiyyat” və “Elan” bölməsində “Dərs verirəm” başlığı altında və “Dəbistan” jurnalına müştəri olmaq istəyənlərin nəzərinə elan çatdırılmışdır. Digər üç nömrədə isə bu ardıcıllıq gözlənilməyib.

“Rəhbər” də iki sütuna bölünür. Hər sütunda 30 sətirlik material yerləşdirilmişdir. Jurnalın hər nömrəsi 16 səhifədən ibarətdir. “Rəhbər”in hər nömrənin sonunda uşaqları

əyləndirən, zehni fəaliyyətini gücləndirən materiallara yer verilmirdi. Yuxarıda da qeyd etdiyimiz kimi "Rəhbər"dən başqa digər iki jurnalın sonuncu səhifələrində çətin sözlərin lüğəti, tapmacalar, lətifələr, hesablar, məsələlər, elanlar kimi bəzi uşaqların zehni inkişafına xidmət eliyən materiallar yerləşdirilirdi.

"Rəhbər" jurnalı da materiallarını öz məramnaməsinə uyğun verirdi. Jurnalın birinci nömrəsini nəzərdən keçirək: Jurnalın redaktoru M.Mahmudbəyovun "Bizə nə lazımdır" məqaləsi, F.Köçərlinin "Ədəbiyyatımıza dair" silsiləli məqalələri, M.Ə.Sabirin "Şimdi fürsət var ikən bir iş gör istiqlal üçün" şeiri, Ə.Əfəndiyevin tərcümə etdiyi "Kisə" hekayəsi, "Kərim Abad şəhərinin rəisi" hekayəsi bu ardıcıllıqla yerləşdirilmişdir. Buradakı materiallar silsilə xarakteri daşıdığına görə demək olar ki, digər nömrələrdə də bu ardıcıllıq gözlənilmişdir.

"Dəbistan" və "Rəhbər"in varisi kimi uzun müddət - 10 il yaşayan "Məktəb" jurnalı digər iki jurnalın tərtibat xüsusiyyətlərini mənimsəmişdir. Nəşr olunduğu illər ərzində jurnalın 95 nömrəsi çıxmışdır. Jurnalın 1911-1912-ci illərdə 22 sayı, 1913-cü ildə 22 sayı, 1914-cü ildə 20 sayı, 1915-ci ildə 15 sayı, 1916-cı ildə 11 sayı, 1918-ci ildə 1 sayı, 1920-ci ildə 3 sayı, 1925-ci ildə isə 1 sayı çıxmışdır.

"Məktəb"in hər bir nömrəsi 15-16 səhifədən ibarət idi. Jurnalın 1-ci nömrəsində belində çantası, əlində dəftəri olan bir məktəbli oğlan rəsmi verilmişdir. Bu hissədə jurnalın ancaq şənbə günləri nəşr olunduğu, ayda 2 dəfə çıxdığı, bir nüsxəsinin qiyməti 10 qəpik olduğu bildirilir. Amma elə hallar olurdu ki, jurnal həftənin digər günlərində də çıxırdı.

Digər jurnallar kimi jurnal simasını belə bildirirdi: "Hər on beş gündə bir dəfə nəşr olunan uşaqlara məxsus müsəvvər, ədəbi, fənni, elmi məcmuədir". Ancaq iki həftədə bir dəfə nəşr olunacağı yazılsa da, "Məktəb" jurnalı bəzən on, bəzən də on yeddi gündən bir çap edilirdi. Bəzi aylarda isə, məsələn, jurnalının üz qabığında olduğu kimi özündə dərin mənanı əks etdirən rəngsiz dekabr, yanvar, fevral aylarında ayda 3 dəfə nəşr edilmişdir. Jurnal şagirdlər üçün nəzərdə tutulduğu və maddi vəziyyətdən (yay aylarında şagirdlər abunə haqqı ödəmirdilər) asılı olaraq yay aylarında nəşr olunmurdu.

"Məktəb" jurnalının üz qabığında 1911-ci ildən 1913-cü ilə qədər üç hissədən ibarədən bir - birilə əlaqəli rəngsiz şəkildən istifadə edilmişdir. Burada məscidin yanından keçən yaşlı kişi və qoltuğunda dəftəri olan iki kiçik uşaq, orta hissədə məktəbə aid olan əşyalar (kitab, qlobus və s.), üçüncü hissədə isə buludların arasından boylanan günəşin ətrafa yaydığı şüaların altında üzərində "Məktəb" yazılan binanın qarşısında dayanan dörd şagird təsvir olunmuşdur. Üz qabığının ən alt hissəsində isə jurnalın adı, yəni böyük hərflərlə "Məktəb" yazılmışdır. Əgər bu şəkillərə diqqətlə fikir versək, məscid məktəblərini əvəz edən yeni üsullu məktəblərin müqayisəsi verildiyini görərik. Məhz şəklin axırıncı hissəsində üzərində "Məktəb" yazılmış hissədə günəş şüalarının əksi məktəblilərin işıqlı gələcəyini göstərir.

1913-cü il jurnalın 22-ci sayından etibarən jurnalın üz qabığı dəyişir, yeni üsullu məktəbi xarakterizə edən saqqalı bir yaşlı kişinin nəvəsinə məktəbə gedən şagirdləri göstərməsi təsvir edilir.

Daha sonra jurnalın "Mündəricat" başlığı altında hansı nömrələrdə hansı materialların verildiyi göstərilir.

Lakin buna baxmayaraq jurnalın keyfiyyətsiz çıxması, bir sıra texniki qüsurların olması jurnalın formasına xələl gətirirdi. Bunun da səbəbi jurnalın maddi çətinliyi ilə əlaqədar idi. Elə "İqbal" qəzeti də 1914-cü il 525-ci nömrəsində (s.3) "Məktəb" jurnalı ilə əlaqəli yazdığı məqaləsində bəzi iradlarını bildirir. Jurnalın redaktoru Böyükağa Talıblı "Məktəb məcmuəsi" adlı məqaləsində artıq 4-cü ildir ki, çıxan "Məktəb" jurnalının əvvəlcə uşaqlar üçün vacibliyini vurğulamış daha sonra isə demək olar ki, nəşr olunduğu illər ərzində jurnalın fəaliyyətini təhlil etmiş və bəzi irad və təkliflərini bildirmişdir. O, jurnalda şəkillərin, xüsusən, rəngli şəkillərin olmamasını, şriftlərin kiçik və sıx olmasını jurnalın nisbətən keyfiyyətsiz kağızda çapını onun qüsuru hesab etmişdi.

"Məktəb" jurnalının demək olar ki, hər nömrəsinin sonunda uşaqlara müraciətlə "Uşaqlara məxsus məktəb jurnalına müştəri olmaq dəftəri açıqdır" - cümləsi ilə deyərək elan verilirdi. Digər uşaq jurnallarından fərqli olaraq burada jurnalın qiyməti, "Elan" bölməsi jurnalın sonuncu səhifəsində verilirdi. Burada jurnalın Bakıda, başqa şəhərlərdə və əcnəbi məmləkətlərdə olan qiyməti də göstərilmişdir:

"Bakıda: illiyi - 2 manatdır. Başqa şəhərlərdə: illiyi - 2 manat 50 qəpikdir. Əcnəbi məmləkətlərdə: illiyi 3 manat 50 qəpikdir".

Jurnalın daxili dizaynına gəldikdə isə deməliyik ki, materiallar, əsasən, şaqüli istiqamətdə, özü də hər bir səhifə iki hissəyə bölünmüş və üstdən bir xətt ilə yazılardan ayrılmış formada yerləşdirilmişdir. Xəttin üstündə isə sağ tərəfdə həmin sayın nömrəsi, orta hissədə "Məktəb" sözü, solda isə səhifə sayı göstərilmişdir. "Məktəb"də şriflər sıx və digər jurnallara nisbətən nəzərəçarpan şəkildə çox qara rəngdə verilirdi. Burada hər bir materialın başlığı qalın qara şriflə, xüsusi bəzədilmiş qrafada verilirdi. Bu bəzəkli şəkillər aid olduğu hər materil da özünəməxsusluğu ilə fərqlənirdi. "Rəhbər"də isə bir-birindən aralı qara şriftlərdən istifadə edilmişdir.

"Dəbistan"da da həmçinin sadə qara şriflərdən istifadə edilmişdir.

Gördüyümüz kimi, jurnallarda hər bir materialın yerləşdirilməsi məntiqi ardıcıllığa uyğun idi. Məsələn, "Məktəb" jurnalının elə 1-ci nömrəsində materiallın yerləşdirilmə ardıcıllığına baxaq: Jurnalın məramnaməsinin ardından N.Nərimanovun "doktor Nəriman bəy" imzası ilə "Əziz balalara" başlığı altında uşaqlara müraciəti yer alır. Burada uşaqlara məktəblərin, kitabların sayının artdığı bir vaxtda yaxşı oxumağı, onların çalışqan olmaları məsləhət görülür. Ardından isə Əli Ələvinin "Çalışalım" şeirində uşaqların artıq çalışmaq yaşına girdikləri və işgüzar olmaları vurğulanırdı.

Göründüyü kimi, ilk nömrədə bu cür materialların verilməsi sanki uşaqları maariflənməyə doğru istiqamətləndirir, onlarda elmə həvəs yaradılır. Bu metod bir növ uşaqları oxumağa həvəsləndirir.

Uşaq jurnalları - "Dəbistan", "Rəhbər", "Məktəb" maliyyə probleminə görə rəngsiz şəkillərlə çıxırdı. Buna görə də naşirlər rəng boşluğunu (çatışmazlığını) doldurmaq üçün şəkilləri daha dolğun göstərməyə və eyni zamanda şəkillərin altında izahlı məlumat verməyə çalışırdılar.

"Dəbistan" da "Məktəb" kimi bu cür ardıcıllıqla materialları yerləşdirməyi düzgün hesab edirdi. Fikrimizcə, jurnallardakı hekayələri, məqalələri oxuyub zehni yorğunluq keçirən uşaqların jurnalın son səhifələrinə gəldikdə əylənərək bu yorğunluğu üzərlərindən atmaları daha münasibdir.

Ümumiyyətlə "Rəhbər" jurnalından başqa "Dəbistan" və "Məktəb" jurnallarının hər bölməsində "Hesablar-tapmacalar" başlığı altında qrafik cədvəllərlə riyazi məsələlər, tapmacalar verilirdi. Uşaqlarda təhsilə həvəs yaratmaq üçün müsabiqə elan edir, suallara, tapmacalara düzgün cavab tapanlara isə "İdarədən" başlığı altında verilmiş bölmədə məlumat verilirdi. Jurnalda verilən materiallar şagirdlərdə zehni yorğunluğu aradan qaldırmağa, bir növ beyin məşqinə kömək edir. Həmin materialların uşaqların yaş psixologiyasına uyğun verilməsi də diqqətə layiqdir. Jurnalların hər nömrəsinin sonunda isə bir qayda olaraq ərəb və fars dillərində olan anlaşılmayan sözlərin lüğəti verilmişdi.

Professor Əflatun Məmmədov da uşaq mətbuatını araşdırarkən bədii materiallardan söhbət açarkən burdakı materialları yalnız bədii cəhətdən təhlil etmişdir. Onun təhlillərində elmi, publisistik, jurnalistik baxımdan yanaşma olmamışdır. Yəni müəllif təhlil etdiyi materiallara bir istiqamətdə baxılmış və bir istiqamətdə də təhlil etmişdir (2). Halbuki, burdakı materiallara dissertasiyada olduğu kimi, həm elmi, həm bədii, həm metodiki, həm publisistik həm də pedaqoji yanaşmaq yaxşı olardı.

Əziz Mirəhmədov "Dəbistan" adlı məqaləsində (4, s.99-103) qeyd edir ki, uşaqlar üçün yazılan şeirlərin ahəngi səlis, musiqisi oynaq, vəzni qısa və yüngüldür. "Uşaq və buz", "Yaz

günləri" mənzumələri tamam nağıllardakı el mənzumələrini xatırladan müxtəsər, yığcam əhvalatda dərin məzmun və unudulmaz bir hikmət ifadə edən, indi də bütün uşaqların dilinin əzbəri olan ibrətli şeirlərdir.

Uşaqlar üçün yazılan şeirlərin dili sadə, daha çox təkrar sözlərdən ibarət olurdu. Elə Sabirin "Dəbistan" jurnalında yazdığı 36 sətirdən ibarət olan "Məktəb şərqisi" şeirinin bütün misralarındakı birinci sözlər təkrar verilmişdir. Burada sözün ardıcıl olaraq iki dəfə işlənməsi məqsədə müvafiqdir. Ümumiyyətlə, uşaq təfəkkürü, düşüncəsi ilə əlaqədər olan bir sıra sözlər oyun adları, valdeynləri, qohumları çağırış dili məhz təkrar sözlər nəticəsində yaranmışdır.

Müşahidə və təhlillər göstərir ki, "Dəbistan", "Rəhbər" və "Məktəb" jurnalları öz fəaliyyətləri boyu xalqa çatdırmaq istədikləri ideyaları həm çap etdikləri materialların məzmun və ideya – estetik keyfiyyətləri, həm də onların oxuculara təqdimat metod və texnologiyasının tələblərinə uyğun təqdim etməyə çalışmışlar. Bəzi obyektiv və subyektiv maliyyə və texniki sıxıntılar ucbatından onların işlərində müəyyən kəm – kəsir olsa da, əsas məqsədlərinə - xalqın yönünü elmə, maarifə, tərəqqi və inkişafa doğru çevirmək, yeni üsulla məktəbləri, ən əsası isə düşüncə tərzini canlandırmaq işində əhəmiyyətli işlər görmüşlər. Onların fəaliyyətləri boyu ana dilinin qrammatik və üslubi qaydaları, normaları keşiyində ayıq-sayıq dayanmaları isə Azərbaycan ədəbi dilinin formalaşmasında az rol oynamamış, digərlərinə örnək olmuşdur.

## Ədəbiyyat:

1. Bayramoğlu A. Jurnalist sənətkarlığı. Redaktoru: Cahangir Məmmədli. Bakı,"Elm və təhsil", 2015. 88 s.
2. Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı.(Dəbistan", "Rəhbər", "Məktəb" jurnalları əsasında). Bakı, Elm, 1977. 161 s.
3. Məmmədov M.,Babayev Y.,Cavadov T.Pedoqoji mühit və uşaq ədəbiyyatı. Redaktoru: Q.İ.Vəkilov.Bakı, Maarif, 1992. 288 s.
4. Mirəhmədov Ə. "Dəbistan". Azərbaycan Dövlət Darülfününün Əsərləri. II buraxılış. Bakı, 1947. 99-103 s.

## Dövrü mətbuat:

5. "Dəbistan" (1906-1908).
6. "Rəhbər" (1906-1907).
7. "Məktəb" (1911-1920).

**Farqana Malikova**

## The stuctural matters of children's journals in XX century

## Summary

The article is devoted to the design matters of the journals "Dabistan", "Leader" and "School", which had a special role in the formation of the national children's press in Azerbaijan . This article provides information on regularity betwen the form and idea of three journals. In addition, design matters ,structure, rubrics , format and other technical specificationsof journals have been widely discussed.By the way , the journal's structural problems and design issues are analysed on the basis of specific examples.

The article provides an overview about the cover and and the first number of the three journals. The design of the cover and the number of pages in "Dabistan", "Leader" and "School" journal have been talked about too. In the article, the number of lines and columns of journals have been studied separately. At the same time, the diversity in the design of "Dabistan", "Leader" and "School" journals has been studied in a compared way . It was concluded that

although "Dabistan" and "School" journals arein similar format,journal "Leader" is completely different from them. This difference is also shown in the articles of "Leader" journal.

The article interpretes the colorless pictures given on the cover of the journals and their meaning are investigated . The article gives information about the editorials, informative articles reflecting the image of the journals , announcements, and other design features of the journals . In addition, the article provides information about subscription fee both within the city and outside the city. At the same time, information is given about subscription fee for six months and for a year .

The article shows that, compared with "Dabistan" and "Leader " journals , the "School" journal contains the title "Contents".

**Key words:** structure, children's press, “Dabistan”, “Rahbar”, “Maktab”, rubric, form

**Фаргана Маликова**

**Проблемы оформления детских журналов в начале XX века**

**Резюме**

Статья посвящена оформлению журналов «Дабистан», «Рехбер» и «Мектеб», которые занимают особое место в формировании Азербайджанской национальной детской прессы. Эта статья предоставляет информацию о пропорции трех журналов. Кроме того были упомянуты вопросы дизайна журнала, структуры, и другие технические характеристики. В статье объясняются структурные проблемы и проблемы дизайна журналов на конкретных примерах.

В статье представлен обзор оболочек и первый номер трех журналов. Обсуждены дизайн оболочки и количество страниц журналов «Дабистан», «Рехбер» и «Мектеб». В статье строки и столбцы журналов были изучены отдельно. В то же время, разнообразие дизайнов журналов «Дабистан», «Рехбер» и «Мектеб», было изучено путем сравнения. Был сделан вывод, что хотя журналы «Дабистан» и Мектеб» имеют одинаковый формат, журнал «Рехбер» совершенно другой.

Эта разница также проявляется в статьях журнала «Рехбер» . В статье описываются бесцветные картинки и их значения на обложках журналов. Статья дает обзор редакционных статей, информационных статей, анонсов и других особенностей журналов. Кроме того, в статье представлена информация о тарифах подписки как внутри города, так и за его пределами. В то же время иностранцы также информируются о шестимесячной и годовой ставке подписки.

В статье показано, что, в отличие от журналов «Дабистан» и «Рехбер журнал «Мектеб » также имеет «Содержание».

**Ключевые слова:** Оформление, детское издание, "Дабистан", "Рагбар", "Мактаб", рубрика, форма

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 08.06.2019
Filologiya elmləri doktoru, professor Alxan Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur.